**HAMLET İSAXANLI**

*Xəzər Universitetinin təsisçisi*
*Direktorlar və Qəyyumlar Şurasının sədri*

# SaĞ OL, əziz MİRNAZİM!




*2016-cı ilin noyabrında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 336 səhifəlik "Mirnazim Əsədullayev – Sənətə sədaqət" kitabı "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur. Kitabın müəllifi Əhsən Rəhmanlıdır.*

*Kitabın "Müsahibələr... Xatirələr... Fikirlər" bölməsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Sağ ol, Əziz Mirnazim!" adlı məqaləsi yer almışdır. Məqaləni oxucularımıza təqdim edirik.*

Səfərdən yeni qayıtmışdım. Xəzər Universitetinin Nizami rayonunda (Məhsəti 41-də) yerləşən korpusunda, mən oturduğum binanın birinci mərtəbəsinə daxil olanda adətən elanlar, bildirişlər, afişalar asılan tərəfə baxırıq. Rəngbərəng afişalardan bir qədər aralıda solğun rəngli bir kağız üzərində iki tələbəmizə ünvanlanmış başsağlığı mətnini gördüm. Birinci başsağlığı bir tələbəmizin atası Nazim Əsədullayevin vəfatı ilə bağlı idi. Donub qaldım. Həmişə gülərüz, şən, sağlam, el adamı kimi tanıdığım Mirnazım müəllimə birdən-birə nə oldu? İctimaiyyətlə əlaqələr şöbəmizin müdiri Əlövsət Əmirbəylini çağırdım, nə olub deyə ondan soruşdum, o da çaşdı, ola bilməz, Mirnazim müəllimi bu günlərdə görmüşəm - dedi. Bir az sonra geri qayıtdı, gülə-gülə Mirnazim müəllim sağsalamatdır ("fikirləşdim kimə zəng edim, sonra onun öz telefonuna zəng etdim, cavab verdi, daha heç nə demədim...") və sizinlə görüşmək istəyir, dedi. Dərindən və rahat nəfəs aldım.

Qısa təhlil səhvimi üzə çıxardı, ilk əvvəl, mənim məşhur kamança ustası olan dos-

tumun adı Nazim deyil, Mirnazimdir. İkincisi, Mirnazimin hər iki oğlunu tanıyıram, Elnur bizdə, Xəzər universitetinin tibb fakültəsində oxuyub və məzun olub, qabiliyyətli oğlandır, ixtisası üzrə məsul vəzifədə çalışır, üstəlik, o da musiqiçidir, universitetdə oxuduğu illərdə qarmonda gözəl ifası ilə həmişə konsert proqramlarımızda iştirak edər, bizi sevindirərdi. Toğrul isə atasının birbaşa davamçısıdır, artıq kifayət qədər tanınmış kamança ustasıdır, sənətşünaslıq doktorudur, əməkdar artistdir, Milli Konservatoriyanın dosentidir. Məni çaşdıran bir şey də "bəlkə mən bilmirəm, Mirnazimin üçüncü uşağı da varmış və o da Elnur kimi Xəzər Universitetinə daxil olub" fikri olmuşdu.

Ertəsi gün Mirnazim yanıma gəldi, içəri girəndə "şükür, çox şükür, sağ-salamatsan, xoş gəlibsən" deyib qucaqladım onu. Mirnazim bir az təəccüblə üzümə baxdı. Əhvalatı ona söylədim. Ləzzətlə gülüşdük. Bernard Şou'nun bənzər əhvalatını yada saldıq (B.Şou bir qəzetdə özü haqqında nekroloq-başsağlığı yazıldığını görmüş və qəzetə qışa bir məktub göndərmişdi: B.Şounun ölümü haqqında xəbər bir qədər şişirdilmişdir...).

Kamança sehrli bir musiqi alətidir, öz iniltisi və fəryadı ilə insanı, insan səsini andırır, oynaq olmağı da bacarır. Ustad kamançaçılar azdır və xalq onları tanıyır. Mirnazim Əsədullayevi klassik ifa üslubuna sadiq, dolu yaradıcı həyat keçirən görkəmli kamança ustası və müəllim kimi uzaqdan- uzağa çoxdan tanıyırdım. Sonra şəxsən tanış olduq, böyük xanəndəmiz Arif Babayevlə birlikdə Xəzər Universitetində muğam və xalq musiqisi dərsi deməyə dəvət etdim. Daha yaxından tanış olduq, çox maraqlı adam olduğunu yəqin etdim. Çox məşhur xanəndələri müşayiət etmiş, məşhur olmayanları müşayiətdən də çəkinməmişdir. Ümumiyyətlə, o, özünü dartan adamlardan deyil, səmimi və dostluq etməyi sevəndir. Kamançaçıları, adətən, əsasən xanəndələri müşayiətə görə tanıyırlar. Lakin Mirnazim müxtəlif muğamlarımızın ifaçısı kimi də əmək sərf etmiş, ifaları lentə alınmış, həmçinin, təcrübəli müəllimliyindən doğan məqalələr və metodik vəsaitlər yazmışdır.

Azərbaycan musiqiçiləri dünyanı gəzib konsert və tamaşalarda iştirak etməklə Azərbaycanı tanıdır, zəngin musiqi mədəniyyətimizi nümayiş və təbliğ edirlər. Bu işdə onların əvəzi yoxdur. Mirnazim Əsədullayev də öz kamançası ilə Avropa, Asiya və Amerikanın müxtəlif guşələrində, müxtəlif ölkələrdə çıxış etmiş, musiqimizi tanıtmağa və sevdirməyə çalışmışdır. Mirnazim Xəzər Universiteti musiqi və incəsənət departmentinin müəllimi kimi İtaliyada və Türkiyədə Arif Babayevlə və tarzən Ramin Rzayevlə birlikdə konsertlər vermişdir. 2012-ci ildə İtaliyaya səfərimiz yaxşı yadımdadır. Milan yaxınlığında yerləşən Vercelli şəhərində UNESCO-nun dəstəyi ilə 8-ci Xalq Poeziyası Festivalı keçirilirdi (7-11 noyabr). Festivalın mərkəzi mövzularından biri Azərbaycan idi. İtaliyada yaşayan tarixçi Mixail Talalayın "İtaliyada Azərbaycan partizanları" məruzəsi, o cümlədən əfsanəvi partizan "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə haqqında aşkar etdiyi yeni faktlar bizi, təbii ki, həyəcanlandırdı. Mən "Musiqi və poeziyanın əlaqəsi" və "Azərbaycan musiqi mədəniyyəti və bəstəkarlıq məktəbində muğamın yeri və rolu" haqqında məruzə etdim, sonra muğam üçlüyümüzü təqdim etdim. Konsert proqramı böyük maraq doğurdu, musiqiçilərimiz təkrar-təkrar səhnəyə qayıtmalı oldular və yorğunluğa baxmayaraq hər qayıdışda daha gözəl ifaları ilə italiyanları və digər ölkələrdən gəlmiş elm və sənət adamlarını, hökumət və iş adamlarını heyran etdilər.

Mirnazim yüksək peşəkar musiqiçidir, onu dinləmək, ondan öyrənmək və məsləhət almaq çox xoşdur. Deyib-gülən, duzlu zarafatları ilə aranı canlandıran, hamıya hər an köməyə gəlməyə hazır olan Mirnazimlə yol yoldaşı olmaq adama ləzzət verir. Mirnazimin yetişdirdiyi iki tərbiyəli, peşəkar, səviyyəli oğul da Mirnazim kimi ali keyfiyyətlilər sırasındadır.

Əziz Mirnazim, sağ ol! Gözəl yaşaya bilirsən, uzun yaşa!